

# Bəndənin ümidi sənsən, İlahi!

**Dilimizdə istifadə olunan dua ifadəsi ərəb sözü olub, çağırmaq mənasındadır. Qadir Allahın şah əsəri olan insan qüdrətən ehtiyaclı yaradılmışdır, yəni ürəyindən keçən istəklərini həyata keçirmək üçün köməyə möhtacdır.**

Qüdrət və Cəlal sahibi Allah-Taala qəni, varlı, pak, münəzzöh, ehtiyacsızdır. Onunla rabitədə olan, Ona pənah aparanın yardımçısıdır. Hər an böyük Yaradanı xatırlamaq, Ona şükr etmək, Ondan yardım diləmək insanın mənəvi borcudur. İslami mənbələrdə bu işə xüsusi diqqət vardır. İslamın əziz peyğəmbəri Məhəmməd(S) buyurur: "Dua möminin silahı, dinin sütunu, Yerin və göylərin nurudur".

Dinin vacib əməllərini yerinə yetirənlər, müstəhəbbi (Allaha xoş gələn, bəyənilən) iş görənlər, pisliklərdən çəkinən təqva sahibləri möminlik mərtəbəsinə yüksəlirlər. Onların duaları Allah dərgahında qəbul olunur, Yer və göylər bu çağırışların nuruna bələnir, dinin sütunu bu dualar vasitəsilə möhkəmlənir. Peyğəmbər buyurur ki, kəs vacibatı yerinə yetirsə, Allah yanında duası müstəcəb olar (qəbul olunar).

Yəni o şəxs ki, obaşdan sübh namazına tələsər, günçıxandan günbatana özünü qadir Allahın nəzarətində hiss edər, qəlbən, ruhən Yaradana bağlanar, şübhəsiz ki, onun duaları qəbul olunar.

Həzrət Əli(ə) buyurur: "Dua vasitəsilə bəla aradan qalxar". Hər bir müsəlmanın böyük Yaradana üz tutması, dua etməsi onun şükranlığının, təvəkkülünün əlamətidir. Müntəzəm olaraq edilən dualar qəzavü-qədərin qarşısını alır.



İmam Cəfəri Sadiq(ə) atası İmam Məhəmməd Baqirdən(ə) rəvayət etmişdir: Beş cür dua müstəcəb sayılır:

1. Adil müctəhidin duası,
2. Məzlum bir şəxsin duası,
3. Övladı haqqında atanın duası.
4. Əməlisaleh övladın atası barədə duası.
5. Bir möminin digər bir mömin haqqında duası.

**Peyğəmbərimizə nazil olan "Quran" müsəlmanların həyat proqramıdır. İlahi kitab özü barədə təkrar-təkrar ayələrdə incə fərqlərlə iman gətirənlər üçün hidayət, ibrət, xeyir-bərəkət mənbəyi, şəfaverici kəlamlar toplusu olduğunu bəyan edir. Birinə diqqət yetirək: (Ya Peyğəmbər! Bu Quran) sənə nazil etdiyimiz mübarək (xeyir-bərəkətli) bir kitabdır ki, (insanlar) onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də (ondan) ibrət alsınlar! ("Qurani-Kərim", tərcümə edənlər: Z.Bünyadov, V.Məmmədəliyev, Bakı-2000, "Sad" surəsi, 23-cü ayə, səh.560).**

Həyatın bütün sahələrini əhatə edən müqəddəs kitabda dua ilə bağlı çoxlu hikmətli ayələr vardır. "Bəqərə" surəsinin 186-cı ayəsində Peyğəmbərə(s) müraciətlə deyilir: ("Ya Məhəmməd!) Bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən (onlara) yaxınam. Dua edib məni çağıranın duasını qəbul edərəm. Gərək onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər. Bununla da, ola bilsin ki, doğru yola yetişsinlər"(səh.31).

Qüdrət və əzəmət sahibi bildirir ki, O, insanlara yaxındır, dualarını da qəbul edəcək. Ancaq bəndələr də ilk öncə iman gətirməli, çağırışını qəbul etməlidirlər. İman dinin əsasıdır, yəni Allahın buyurduqlarının qəlbən, ruhən qəbulu, dildə iqrarı və onlara etiqad edilməsi, həyata keçirilməsidir. Din insanın daxili mənəvi aləmi ilə bağlı hadisədir və onun təzahür forması hər bir şəxsin zahiri əməlləridir. Mənəvi paklıq, daxili təmizlik, saflıq gözəl əməllərlə üzə çıxır, cəmiyyət üzvləri ilə əlaqədə özünü göstərir.

"Mümin" surəsinin 60-cı ayəsində oxuyuruq: "Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim! (Məni çağırın, harayınıza yetişərəm, yaxud yalnız Mənə ibadət edin, sizi mükafatlandıraram)! Mənə ibadət etməyi təkəbbürlərinə sığışdırmayanlar Cəhənnəmə zəlil olaraq girəcəklər! (səh.584). Hamıya məlumdur ki, təkəbbürlü adamları, özünü bəyənən insanları cəmiyyət sevmir, çünki belələri özlərini hər cəhətdən digərlərindən üstün tuturlar. Bu cür adamların təkəbbürləri onlara qadir Allaha dua etməyə, ibadət və itaətə, səcdəyə düşmələrinə mane olur. Allah-Taala xəbərdar edir ki, təkəbbürlülər zəlil olaraq Cəhənnəmə daxil olacaqlar. Şeytanın da Allahın əmrini pozmasına səbəb onun təkəbbürü olmuşdur.

Müqəddəs kitabın "Fatir" surəsinin 15-ci ayəsində deyilir: "Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə ( heç nəyə, o cümlədən sizin ibadətinizə) möhtac deyildir, hər cür şükrə, tərifə layiqdir!" (səh.530) . Ayədən göründüyü kimi, biehtiyac olan Allah şükrə, tərifə, öyülməyə layiqdir, insan isə Yaradana möhtacdır, hər bir işində Onun yardımına bağlıdır.

Xoş o bəndənin halına ki, varlı və yoxsul olmasından asılı olmayaraq, bu həqiqəti dərk edir və Allaha layiq ibadət və dua etməyi bacarır.

"Bəqərə" surəsinin 255-ci ayəsində oxuyuruq: "Allahdan başqa heç bir tanrı yoxdur. Əbədi, əzəli varlıq Odur. O nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa (hamısı) Onundur. Allahın izni olmadan (qiyamətdə) Onun yanında (hüzurunda) kim şəfaət (bu və ya digər şəxsin günahlarının bağışlanmasını xahiş) edə bilər? O bütün yaranmışların keçmişini və gələcəyini (bütün olmuş və olacaq şeyləri) bilir. Onlar (yaranmışlar) Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü (elmi, qüdrət və səltənəti) göyləri və yeri əhatə etmişdir.

Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca, Ən böyük varlıq da Odur!" (səh.45-46). Hansı tərəfə dönsək, hansı səmtə baxsaq Allahın yaratdıqlarını görürük. Biz varlığımıza, yaşamağımıza, həyatımıza, hər an belə nəfəs çəkməyimizə görə böyük Yaradana borcluyuq və həmişə Ona minnətdar olmalı, dua etməliyik. İslamın əziz peyğəmbəri Məhəmməd (s) buyurur: "Allah - Təala duada israr etməyi sevər". Çünki Allahın qüdrət və əzəməti, böyüklüyü qarşısında biz kiçikliyimizi, həmişə Ona ehtiyaclı olduğumuzu dualarımız, yalvarışlarımız vasitəsilə bəyan edirik. Cəlal və Kərəm sahibinə təkrar-təkrar müraciət, Onu çağırmaq Yaradanın xoşuna gələr, bəndəsinin hacətini verməklə onu sevindirər.

İlahi kitabda duanın nə cür icra edilməsi barədə də bəndələrə öyüd verilir: "Rəbbinizə yalvara-yalvara, həm də gizlicə dua edin. Şübhəsiz ki, O, həddi aşanları (qışqıraraq dua edənləri) sevməz! ("Əraf" surəsi, 55-ci ayə, səh. 165). Allah nəinki səsimizi eşidir, hətta qəlbimizdən keçənləri də bilir.

Müqəddəs kitabımız göstərir ki, Allahın seçdiyi peyğəmbərlər də Yaradana dua etməklə bizə nümunədirlər. "Sad" surəsinin 35-ci ayəsində deyilir: "(Süleyman dua edib) dedi: "Ey Rəbbim! Məni bağışla və mənə elə bir mülk (səltənət) ver ki, məndən sonra (o cürəsinə) heç kəs nail ola bilməsin. Həqiqətən, Sən böyük ehsan (kərəm) sahibisən! (Allah Süleymanın duasını qəbul buyurdu.

Ona həm peyğəmbərlik, həm də padşahlıq əta etdi) (səh.561). Duası qəbul olunan Həzrət Süleymana (ə) Allah küləyi də ram edir, çöldəki bütün vəhşi heyvanları onun qulluğuna göndərir. Sonrakı ayələrdə səbr və şükranlıq mücəssəməsi olan Həzrət Əyyub(ə) peyğəmbər xatırlanır, Ən gözəl bəndə kimi insanlara nümunə çəkilir.

Yer üzündə təkallahlılığı bərqərar edən, bu yolda zəmanənin zalım hökmdarı Nəmruda qarşı cəsarətlə mübarizə aparan Həzrət İbrahim (ə) peyğəmbərin həyatı ibrətamiz hadisələrlə doludur. Nəmrudla mükalimədə yeganə Allaha iman gətirdiyini sübut və dəlillərlə bəyan etdikdə qəddar hökmdar onun yanar oda atılmasını qərar verdi.

Qadir Allah göyə alov saçan tonqalın orta hissəsini çəmənzara döndərdi. Tonqal sönəndən sonra padşah bu möcüzə qarşısında xəcil oldu, yeganə Allaha iman gətirməsə də, qorxudan İbrahimə(ə) toxunmadı. Həzrət İbrahim(ə) sonrakı imtahanlardan da uğurla çıxdı, sidq-ürəklə oğlu İsmayılı (ə) Minaya qurban kəsməyə apardı və Xəlilullah (Allahın dostu) ləqəbini qazandı. Sonra Kəbə evini oğlu İsmayılla (ə) inşa etdi. İlahi kitabda Həzrət İbrahim(ə) və oğlu İsmayılın (ə) duaları bu cür verilir: " Onu da yadına sal ki, İbrahim və İsmayıl evin (Kəbənin) bünövrəsini ucaltdıqları zaman : "Ey Rəbbimiz! (Bu xeyirli işi) bizdən qəbul et. Sən, doğrudan da, (hər şeyi) eşidənsən, bilənsən!"-deyə dua etdilər.

(İbrahim və İsmayıl dedilər:) "Ey Rəbbimiz! Bizim hər ikimizin Sənə itaətkar (müsəlman) nəslimizdən yetişənləri Sənə təslim olan ümmət (müsəlman) et, bizə (həcc) əməllərimizi (ibadət qaydalarımızı) göstər, tövbəmizi qəbul et). Həqiqətən, Sən tövbələri qəbul edənsən, mərhəmətlisən!"

(Onlar yenə dedilər:) "Ey Rəbbimiz! Onların (nəslimizin) içərisindən özlərinə elə bir peyğəmbər göndər ki, Sənin ayələrini (hökmlərini) onlara oxusun, (Sən göndərən) Kitabı(Quranı) və (oradakı) hikməti onlara öyrətsin, onları (günahlardan) təmizləsin! Həqiqətən, Sən yenilməz qüvvət, hikmət sahibisən" ("Bəqərə" surəsi, 127-129-cu ayələr, səh.21-22).

Kəbə evinin ilk inşasından min illər keçmişdir. İbrahim (ə) və İsmayıl(ə) peyğəmbərlərin duaları Allah dərgahında qəbul olunmuşdur. Yaşadığımız zəmanədə hər il milyonlarla insan Kəbə evinin ziyarətinə gəlir, Həcc mərasimini yerinə yetirirlər. Onlar təvafa İbrahim məqamından başlayır, Kəbə evi ilə birgə bu evin sol qucağına sığınmış Həzrət İsmayıl(ə) və anası Hacərin məzarlarını da təvaf edirlər. Peyğəmbərlər tarixinə nəzər yetirəndə görürük ki, daha çox ömür sürən Həzrət Nuh(ə) (təxminən 2300 və ya 2500 il ) 950 il ("Ənkəbut" surəsi, 14-cü ayə) xalqı haqq dininə dəvət etmişdir. Ancaq bu müddət ərzində çox az qisim insanlar ona iman gətirdilər. Uzunmüddətli təbliğ qəlbi daşa dönmüş adamları azğınlıq yolundan döndərə bilmədi.

Həzrət Nuh(ə) qövmü və özü, valideynləri, mömin insanlar barədə belə dua edir: "Nuh dedi: "Ey Rəbbim! Yer üzündə bir nəfər belə kafir qoyma! Çünki Sən onları (sağ) buraxsan, onlar Sənin bəndələrini yoldan çıxaracaq, ancaq pozğun və kafir(oğul-uşaq) doğub-törədəcəklər. Ey Rəbbim! Məni, ata-anamı, mənim evimə (yaxud məscidimə) mömin kimi daxil olan kimsəni (qiyamət gününə qədər olacaq bütün mömin kişiləri və qadınları bağışla. Zalimlərin isə ancaq və ancaq həlakını artır! ("Nuh" surəsi, 26-28-ci ayələr, səh.726). Kafir, pozğun insanlardan rəzil adamların törənəcəyi şübhəsizdir. Allah-Taala Həzrət Nuhun(ə) duasını qəbul etdi. Allahın əmrini, peyğəmbərin dəvətini qəbul etməyən zalimlər suya qərq olmaqla həlak oldular. Allahın peyğəmbəri duasında özünün, valideynlərinin və möminlərin bağışlanmasını diləyir.

Həzrət Yusif(ə) peyğəmbər pis iş görüb Allahın əmrini pozmaqdansa zindanı üstün tutur, haqqı qorumaq üçün əzab-əziyyəti qəbul edir, Yaradana yalvarır: "(Yusif) dedi: "Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən xoşdur. Əgər (bu qadınların) hiyləsini məndən dəf etməsən, mən onlara meyl edər və cahillərdən olaram". ("Yusif" surəsi, 33-cü ayə, səh.258).

Övlad arzusunda olan Zəkəriyyə (ə) peyğəmbər Allah dərgahına üz tutur: "( O zaman ) Zəkəriyyə Rəbbinə dua edərək dedi: "Ey Rəbbim! Mənə də Öz tərəfindən pak bir övlad bəxş et! Sən, həqiqətən, duaları eşidənsən!" ("Ali-İmran" surəsi, 38-ci ayə,səh.58). Tanrı duasını eşitdi və əməlisalehlər cərgəsində olan Yəhya peyğəmbərin dünyaya gələcəyi xəbəri ilə onu müjdələdi.

**Müqəddəs kitabda peyğəmbərlərin Yaradana dualarında bağışlanmaları xüsusi yer alır. "Əraf" surəsinin 151-ci ayəsində Həzrət Musa(ə) peyğəmbər Allahdan belə mərhəmət diləyir: "(Musa) dedi: "Ey rəbbim! Məni də, qardaşımı da bağışla. Bizi Öz mərhəmətinin altına al. Sən rəhm edənlərin Ən rəhimlisisən!" (səh.177). Peyğəmbərlərin qadir Allaha duası bəndələr üçün ibrət nümunəsidir.**

"Quran" bəyan edir ki, Həzrət İsa(ə) peyğəmbərin köməkçiləri (həvarilər) ondan xahiş etdilər ki, Rəbbi göydən onlara yeməklə dolu bir süfrə göndərsin, həm yeməklərindən yesinlər, həm də ürəkləri aram tapsın, peyğəmbərliyinə şahid dursunlar. Həzrət İsa(ə) peyğəmbər Yaradana belə müraciət edir: "Məryəm oğlu İsa dedi: "Ya Allah, ey bizim Rəbbimiz! Bizə göydən bir süfrə nazil et ki, o bizim həm birincimiz, həm də axırıncımız üçün bayram və səndən (Sənin qüdrətindən) bir möcüzə olsun. Bizə ruzi ver ki, Sən ruzi verənlərin Ən yaxşısısan!" ("Maidə" surəsi, 114-cü ayə, səh.130).

**İlahi kitabın "Ənfal" (9-cu ayə), "Şüəra"(83), "Nəml"(19), "Əhqaf"(15), "Qəmər"(10), "Mümtəhinə"(4-5) və başqa surələrində də dua ilə bağlı çoxlu ayələr vardır. Hər bir ayənin dərki bizi dərindən, hərtərəfli düşünməyə sövq edir.**

**Düşünmək, Allahın yaratdıqlarını xatırlamaq nəticə çıxarmaq baxımından ibadətin bir növüdür. Allahın xəlq etdiklərini dərk edənlər Ona heç vaxt şərik qoşmaz, duaları ilə istəklərini, həm də minnətdarlıqlarını ifadə edərlər.**

İslamın ilkin təşəkkül dövründə müsəlmanlığı qəbul edən xalqımız yaratdığı şifahi xalq ədəbiyyatı nümunələrində dualara geniş yer vermişdir. Bayatı, nazlama, dastan və başqa bədii mətnlərdə insanların qəlb çırpıntılarını, arzularını ifadə edən dualarımızın poetik təcəssümünü görürük. Fikrimizin izahı üçün bir-iki nümunəyə diqqət yetirək. Körpəsini qorumaq, onu böyütmək arzusu ilə yaşayan ananın dilindən deyilir:

***Qapımızda var çinar,***
***Yarpağı dinar-dinar.***
***Mənim balam körpədir,***
***Saxlasın Pərvərdigar.***

"Şahzadə Əbülfəz" dastanının "Ustadnamə" hissəsinin ilk bəndində oxuyuruq:

***Qadir Allah budur Səndən diləyim,***
***Sən mərdi namərdə möhtac eyləmə.***
***Qeyb xəzinəndən yetir ruzisin,***
***Sən mərdi namərdə möhtac eyləmə.***

Şeirin müəllifi Dəllək Murad dua edərək bildirir ki, qadir Allah mərdin ruzisini qeybdən yetirsin, onu heç vaxt namərd adamlara möhtac etməsin. Sonrakı bəndlərdə şair göstərir ki, Tanrının kərəmi çoxdur, qoy O heç vaxt qardaşı qardaşa, atanı oğula, hətta bu əli o ələ, bu gözü o gözə möhtac eləməsin.

Çünki bəzən qardaş da qardaşa yardım göstərəndə üstünlüyünü eyhamla, tənəli sözlə bildirməyə çalışır. Ancaq mərhəmətlilərin ən mərhəmətlisi böyük Yaradan heç vaxt üstümüzə minnət qoymur, bu dünyada möminə də, günahkara da rəhm edir, ruzisini yetirir.

1300 illik tarixi olan "Kitabi-Dədə Qorqud" dastanındakı boyların hər birinin sonluğu dualarla qurtarır.

"Salur Qazanın evinin yağmalanması" boyunun axırında deyilir: "Qadir Tanrı səni namərdə möhtac etməsin! Çaparkən ağ-boz atın büdrəməsin! Çalışanda qara polad üz qılıncın kütəlməsin! Ağ saqqallı baban yeri uçmaq (cənnət) olsun! Ağ birçəkli anan yeri behişt olsun! Axır sonu arı (pak) imandan ayırmasın! Amin, amin deyənlər didar görsün! Ağ alnında beşər kəlmə dua qıldıq, qəbul olsun! Allah verən umurun üzülməsin!

Yığışdırsın, dürüşdürsün, günahlarını adı görklü Mühəmməd Mustafa üzü suyuna bağışlasın! ("Kitabi-Dədə Qorqud, Bakı-1962, səh.41). Maraqlı cəhət budur ki, Oğuz igidləri həm düşmən üzərinə getməmişdən qabaq, həm də qələbədən sonra hacət (diləklərinin yerinə yetməsi üçün) namazı qılır, sonra Allaha dua edir və Peyğəmbər (s) hörmətinə günahlarının bağışlanmasını arzulayırlar.

İslam dünyasının görkəmli mütəfəkkirləri ən dəyərli əsərlərinə minacatla - Allahın tərifi ilə başlamış, Ona dualar qılmış, hər bir işində Ondan kömək, yardım diləmişlər. Dahi Nizami Gəncəvi "Xosrov və Şirin" əsərinin "Minacat"ında yazır:

*Əvvəlcə torpaqdan yaratdın məni,*
*Sonra fəzilətlə ucaltdın məni.*
*Gələndə son yuxu, bitəndə tabım,*
*Güllərim töküləsə, qalsın gülabım.*
*Dilimə Sən Özün bəxş et şəhadət,*
*İşimin sonunda tapım səadət.*

Şair onu fəzilətə ucaldan İlahidən elə ömür arzulayır ki, gülləri töküləndə (həyatı başa çatanda) əməlləri gülab kimi insanlara xoş rayihə bəxş eləsin, dilində şəhadət olsun, işinin sonunda səadət tapsın.

Böyük sənətkarın "Yeddi gözəl" poemasının girişində oxuyuruq:

*Səndə axtardığım istək yaxşıdır,*
*Sənə könül açıb demək yaxşıdır.*
*Sirri desəm yada, eylər xar məni,*
*Sən, ey Nizamini bəsləyən Allah,*
*Qoyma ki, qapına gəlirmiş pənah.*
*Ucaltsın başını İlahi qüdrət,*
*Şahlıq tacı geysin ondakı hikmət.*

Cəlal və əzəmət sahibinin gözəl adlarından biri Səttarəl-uyubdur(gizli sirləri örtən) .

Allaha sığınan şair göstərir ki, gizli sirrimi yada söyləsəm, məni xar edər, Sənə bildirsəm, məni ucaldarsan. Ona görə qapına pənah gətirmişəm.

N. Gəncəvi sonuncu əsəri "İsgəndərnamə"nin ("İqbalnamə") "Minacatın"da deyir:

***Bəndənin ümidi Sənsən, İlahi,***
***Yoxdur səndən başqa onun pənahı.***

*Sənin qüdrətində aşkar olmuşam,*
*Hər bir xəzinəyə açar olmuşam.*
*Köhnə hekayəti çatdırdım sona,*
*Başlasın təzə söz indi cövlana.*
*Saldın ilk sözümü Sən dildən-dilə,*
*Bu son addımı da yetir mənzilə.*
*Ziya saç, qoy qəlbim işıqla dolsun,*
*İncə mətləblərə o, güzgü olsun.*

XV əsr fars-tacik poeziyasının ən böyük klassiki Ə.Cami dünya şöhrətli "Yusif və Züleyxa" poemasının girişində Allaha belə dua edir:

*İlahi, solmayan bir gül ver bizə!*
*Ümid qönçəsini aç üzümüzə!*
*Bu möhlət evində minnət qoymadan,*
*Məni nemətinə qərq et, Yaradan!*
*Paklıqdan, ağıldan barındır məni,*
*Sözümlə fəth edim bütün ölkəni!*
*Yağsın qələmimin dilindən şəkər!*
*Yazdığım şeirlər qoxusun ənbər!*

Şairin İlahidən istəyi ağıl, paklıq və dilində şeirin, gözəl sözlərin olmasıdır. İnsanı heyrətdə qoyan, məftun edən qiymətli sözlər, gözəl ifadələr heç zaman solmayan güllər kimidir.

Belə şeirlər ənbər qoxuyur, könülləri fəth edir, müəllifinə hörmət və məhəbbət gətirir, onu tarixboyu unudulmaz edir. 5 əsrdən artıqdır ki, Cami yaradıcılığından feyziyab olanlar ruhuna dualar oxuyurlar.

XX əsrin son rübündə ölkəmiz müstəqillik əldə etmiş, müqəddəs dinimizin təbliğinə qoyulmuş qadağalar arxada qalmışdır. İslami dəyərləri önə çəkən, insanı paklığa, halallığa qovuşduran bədii nümunələr yaranmaqdadır. Zəmanəmizin tanınmış söz sərrafı, xalq şairi Zəlimxan Yaqub son illərdə qələmə aldığı "Peyğəmbər" poemasına aşağıdakı dua ilə başlayır:

*Peyğəmbər qəlbindən*
*üzə nur çilə,*
*Bizim çöhrəmizi*
*güldür, İlahi!*
*Bağlı qapıları*
*aç üzümüzə,*
*Sirləri bizə də*
*bildir, İlahi!*
*Haqqa ümidləri*
*qırılmaz elə,*
*Şeytan arzusunu*
*soldur, İlahi!*
*Çıxart içimizdən*
*iblis məkrini,*
*Mühəmməd şövqüylə*
*doldur, İlahi!*
*Mələk mərtəbəsi,*
*Peyğəmbər yolu*
*Ən dürüst, ən doğru*
*yoldur, İlahi!*

İnsanın Allahla rabitəsi zəifləyəndə şeytan hiyləsi ürəyə qələbə çalır, haqqa ümid azalır. Şairin duası budur ki, içimizdən iblis məkri uzaq olsun, müşkül işlərimiz düzəlsin, bağlı qapılar açılsın, Peyğəmbər nurundan bizim üzümüzə, çöhrəmizə gülüş qonsun. Qoy İlahi qüdrətilə ümidlərimiz həyata keçsin, ən düzgün, ən dürüst yol olan Peyğəmbərin həyatı həmişə bizə ibrət və nümunə olsun. Bütün bunlar hər bir oxucunun ürəyindən xəbər verən gözəl dualardır.

Müasir dövrümüzün görkəmli din xadimlərindən biri buyurmuşdur ki, "Quran" Allah tərəfindən işıqlı səmadan bəndələrə nazil olub, dua isə bəndələrin tərəfindən Allahın dərgahına yüksəlir. Göylər aləmindən yerə enən və yerdən səmaya ucalan kəlamlar Allahla bəndələr arasındakı qırılmaz tellərdir və insanın düzgün tərbiyəsinə, mənəvi cəhətdən paklanmasına, kamilləşməsinə xidmət göstərir. Dini mənbələrdə yer almış rəcəb, şəban, ramazan aylarının məxsusi duaları, "Əhd", "Mücür", "Kumeyl", "Fərəc" və digər dualar böyük ilahi dəyərə malik çağırışlardır və insanın ruhi aləminin dərmanıdır.

Məhəmməd (s) peyğəmbər buyurur: "Ən aciz adam odur ki, dua etməyə də acizdir, ən xəsis adam odur ki, salam verməyə də xəsislik edir". Gərək bir-birimizlə rastlaşanda, görüşəndə salamlaşaq ki, mehr-ülfətimiz yüksəlsin, xəsislik bizə qələbə çalmasın. Gəlin İlahi dərgahına dua etməyə zəiflik göstərməyək ki, qoy Allah nuru qəlbimizə dolsun, nəzəri həmişə üstümüzdə olsun.

Çünki dua ürəyə aramlıq gətirər, insanı həyəcandan qurtarar. Bu barədə müqəddəs kitabın "Rəd" surəsinin 28-ci ayəsində deyilir: "O kəslər ki, Allaha iman gətirmiş və qəlbləri Allahı zikr etməklə aram tapmışdır. Bilin ki, qəlblər (möminlərin ürəkləri) yalnız Allahı zikr etməklə rahatlıq tapar!" (səh.276).

**Allahı dua yolu ilə xatırlamaq ürəkdə nur yaradır, insanda həyata, yaşamağa, yaratmağa məhəbbət oyadır. Dua insanı şeytandan uzaqlaşdırır, onu ruhi xəstəliklərdən qoruyur, halal ruzisini bərəkətli edir.**

● **Hacı BAYRAM**